https://doi.org/10.58225/tim.2025-2-258-265

**M.R.Məmmədov**
*doktorant, Bakı Dövlət Universiteti*
*ORCID 0009-0006-8224-8182*
*mulkmemmedov@gmail.com*

*Məqalə redaksiyaya daxil olub 15.04.2025*
*The article was received by editorial board on 15.04.2025*
*Статья принята к печати 15.04.2025*

# AQRAR MƏHSULLARIN STANDARTLAŞDIRILMASI VƏ SERTİFİKATLAŞDIRILMSININ XARİCİ İQTİSADİ İNKİŞAFDA ROLU: AZƏRBAYCAN VƏ QLOBAL PERSPEKTİVLƏR

**Xülasə**

***Giriş və Məqsəd***

*Aqrar sektor iqtisadi inkişafın və xarici ticarətin vacib sahələrindən biri kimi Azərbaycan üçün mühüm əhəmiyyət daşıyır. Məqalədə məqsəd, aqrar məhsulların beynəlxalq bazarlara çıxışını təmin etmək və xarici ticarət əlaqələrini genişləndirmək üçün standartlaşdırma və sertifikatlaşdırma prosesinin rolunu araşdırmaqdır. Beynəlxalq ticarət sistemində məhsulların təhlükəsizliyi və keyfiyyəti sertifikatlar vasitəsi ilə təsdiq olunur. Bu da, öz növbəsində, ölkələr arasında iqtisadi əməkdaşlığı gücləndirir. Azərbaycan üçün beynəlxalq standartlara uyğunlaşmaq, aqrar sektorun rəqabət qabiliyyətini artıraraq xarici bazarlarda mövqelərini gücləndirmək imkanı yaradır.*

***Materiallar və metodlar:*** *Tədqiqat materialları kimi Azərbaycan və digər ölkələrdə tətbiq edilən beynəlxalq sertifikatlaşdırma və standartlaşdırma sistemlərinə dair qanunvericilik sənədləri, aqrar sektorun inkişaf strategiyaları və beynəlxalq ticarət məlumatları istifadə edilmişdir. Metod olaraq keyfiyyət analizi və müqayisəli təhlil yanaşmaları tətbiq olunmuşdur. Sertifikatlaşdırma prosesinin aqrar sektora təsiri tədqiq edilmiş, Azərbaycan aqrar məhsullarının beynəlxalq bazarlarda rəqabət qabiliyyəti təhlil edilmişdir. Həmçinin beynəlxalq təcrübələr araşdırılmış və Azərbaycan üçün mümkün tətbiq yolları müzakirə edilmişdir.*

***Tapıntılar:*** *Tədqiqat nəticəsində müəyyən edilmişdir ki, Azərbaycanda aqrar məhsulların beynəlxalq bazarlara çıxışını təmin etmək üçün beynəlxalq standartlara uyğun sertifikatlaşdırma sisteminin tətbiqi zəruridir. Hal-hazırda bir çox aqrar məhsul keyfiyyət və texniki standartlara tam cavab vermədiyindən ixrac imkanları məhduddur. Sertifikatlaşdırmanın tələblərinə uyğun məhsulların istehsalı ixracda artım yarada bilər. Həmçinin, sertifikatlaşdırma sisteminin tətbiqi üçün yerli qanunvericiliyin təkmilləşdirilməsi və istehsalçılara texniki dəstək olduqca mühüm məsələdir. Xarici investisiyaların artırılması da beynəlxalq standartlara uyğun istehsal müəssisələrinin qurulması üçün zəruri amillərdən biridir.*

***Müzakirə və Nəticə:*** *Tədqiqat göstərir ki, aqrar məhsulların sertifikatlaşdırılması və standartlaşdırılması Azərbaycanın aqrar sektorunun inkişafında mühüm və həlledici rol oynaya bilər. Beynəlxalq bazarlarda rəqabətə davamlı olmaq üçün keyfiyyətə və təhlükəsizliyə dair tələblərə cavab vermək vacibdir. Azərbaycan üçün prioritet sahələrdən biri istehsalçılar və dövlət orqanları arasında əməkdaşlığı gücləndirərək, beynəlxalq sertifikatların alınması üçün infrastruktur və qanunvericilik bazasının yaradılmasıdır. Nəticə olaraq, sertifikatlaşdırma sisteminin təkmilləşdirilməsi aqrar sektorun xarici ticarət imkanlarını genişləndirəcək və ölkəyə xarici investisiyaların cəlb olunmasını təşviq edəcəkdir.*

***Açar sözlər:*** *aqrar sektor, sertifikatlaşdırma, standartlaşdırma, beynəlxalq ticarət, rəqabət qabiliyyəti.*

## GİRİŞ

Azərbaycan iqtisadiyyatında aqrar sektor mühüm rol oynayır və son illərdə bu sahənin inkişafı ölkənin iqtisadi siyasətində prioritet istiqamətlərdən biri olmuşdur. Azərbaycanın coğrafi mövqeyi, əlverişli təbii şəraiti və kənd təsərrüfatına yararlı iqlimi bu sahənin inkişafı üçün geniş potensial yaradır. Bununla yanaşı, qlobal bazarda rəqabətliliyin artırılması üçün kənd təsərrüfatı məhsullarının beynəlxalq standartlara uyğun olması, məhsul keyfiyyətinin artırılması və sertifikatlaşdırma proseslərinin təkmilləşdirilməsi mühüm əhəmiyyət kəsb edir. Xüsusilə beynəlxalq bazarlara çıxış və ixrac potensialının genişləndirilməsi üçün aqrar məhsulların sertifikatlaşdırılması vacibdir.

Aqrar məhsulların sertifikatlaşdırılması və standartlaşdırılması qlobal miqyasda qəbul olunmuş standartlara uyğunluğun təsdiqlənməsi prosesidir. Sertifikatlaşdırma məhsulun keyfiyyətini, təhlükəsizliyini və uyğunluğunu təsdiqləyən sənədləşdirilmiş prosesdir və bu, əsasən beynəlxalq standartlar əsasında reallaşdırılır. Bu prosesin düzgün tətbiqi, məhsulun beynəlxalq bazarlarda daha geniş istehlakçı kütləsinə çatdırılması üçün əsa amillərdən biridir. Eyni zamanda, sertifikatlaşdırma prosesi kiçik və orta təsərrüfatlar üçün əlavə maliyyə yükü yaradır və bu səbəbdən bir çox təsərrüfat bu tələbləri yerinə yetirməkdə çətinlik çəkir.

Sertifikatlaşdırma yalnız məhsulun keyfiyyətini təsdiqləmək deyil, eyni zamanda ekoloji təhlükəsizlik, istehsal prosesinin davamlılığı və sosial məsuliyyət tələblərinə uyğunluğu da qiymətləndirilməsidir. Məsələn, üzvi kənd təsərrüfatı məhsulları istehsal edən təsərrüfatlar üçün xüsusi sertifikatlar tələb olunur ki, bu, onların beynəlxalq üzvi qida bazarına çıxışını təmin edir. FAO-nun məlumatlarına görə, 2022-ci ildə qlobal üzvi qida bazarının həcmi 105 milyard ABŞ dollarına çatmışdır və bu bazarda yalnız sertifikatlaşdırılmış məhsullar iştirak edir. **[5]** Bu, sertifikatlaşdırmanın qlobal səviyyədə nə qədər böyük rol oynadığını göstərir.

Azərbaycanın kənd təsərrüfatı məhsulları, xüsusilə fındıq, pambıq və meyvə-tərəvəz kimi məhsullar beynəlxalq bazarlarda böyük tələbatla qarşılanır. Lakin bu məhsulların sertifikatlaşdırılmadan ixrac edilməsi rəqabətliliyi azaldır və qiymət baxımından dezavantaj yaradır. Buna görə də, Azərbaycan hökuməti son illərdə sertifikatlaşdırma prosesinin inkişaf etdirilməsi və beynəlxalq standartlara uyğunluğun təmin edilməsi istiqamətində müxtəlif proqramlar həyata keçirməkdədir. Azərbaycan Qida Təhlükəsizliyi Agentliyi (AQTA) bu sahədə mühüm rol oynayır və yerli istehsalçıların beynəlxalq standartlara uyğun sertifikatlar əldə etməsi üçün mühüm dəstək verir. Məsələn, 2024 cü ildə Azərbaycanda sertifikatlaşdırılan kənd təsərrüfatı məhsullarının 35%-i beynəlxalq standartlara uyğun gəlmişdir.

Bununla yanaşı, beynəlxalq standartlara uyğun məhsulların istehsalı Azərbaycanın kənd təsərrüfatı məhsullarının ixrac potensialını əhəmiyyətli dərəcədə artırmışdır. Məsələn, 2023-cü ildə Azərbaycanın kənd təsərrüfatı ixracının 45%-i sertifikatlaşdırılmış məhsullardan ibarət olmuşdur. Bu, sertifikatlaşdırmanın beynəlxalq ticarətdə önəmli rolunu və Azərbaycanın qlobal bazarda rəqabət qabiliyyətini artırdığını göstərir.

Bu məqalədə Azərbaycanın aqrar məhsullarının sertifikatlaşdırılması və standartlaşdırılmasının ölkənin xarici iqtisadi inkişafına təsiri araşdırılır. Məqsəd sertifikatlaşdırma və standartlaşdırma proseslərinin Azərbaycanda kənd təsərrüfatı məhsullarının beynəlxalq bazara çıxışında necə bir rol oynadığını, bu proseslərin iqtisadi göstəricilərə və fermer təsərrüfatlarının gəlirlərinə təsirini təhlil etməkdir. Eyni zamanda, bu mövzuda mövcud olan çətinliklər və onların həlli yolları təklif olunur.

**Araşdırma və Tapıntılar:**

1.Sertifikatlaşdırmanın əhəmiyyəti və qlobal ticarətdəki rolu.

Sertifikatlaşdırma kənd təssüfatı məhsullarının beynəlxalq bazarlara çıxışında əsas tələblərdən biridir. Bu, məhsulların təhlükəsizlik, keyfiyyət və davamlılıq standartlarına uyğun olduğunu təsdiqləyən bir prosesdir. Xüsusəndə Avropa İttifaqı, ABŞ və Asiya ölkələrində sertifikatlaşdırma beynəlxalq ticarətin vacib bir hissəsinə çevrilib. Sertifikatlaşdırılmış məhsulların bazar dəyəri qeyri-sertifikatlaşdırılmış məhsullarla müqayisədə daha yüksəkdir, çünki bu məhsullar daha çox alıcı inamını qazanır və ciddi ticarət manеələrini aşır. **[17]**

2. Azərbaycanda sertifikatlaşdırmanın rolu

Azərbaycanda sertifikatlaşdırmanın kənd təsərrüfatı məhsullarının ixracına təsiri son illərdə əhəmiyyətli dərəcədə artıb. 2022-ci il üzrə AQTA-nın (Azərbaycan Qida Təhlükəsizliyi Agentliyi) hesabatında göstərilir ki, ixrac üçün nəzərdə tutulan kənd təsərrüfatı məhsullarının təxminən 85%-i sertifikatlaşdırma prosesindən keçib. Bu, Azərbaycan kənd təsərrüfatı məhsullarının beynəlxalq standartlara uyğunluğunun və rəqabət qabiliyyətinin artmasına şərait yaradıb. **[9]**

**Cədvəl 1**

**Azərbaycanda sertifikatlaşdırmanın kənd təsərrüfatı məhsullarının ixracına təsiri (2020-2023)**

| İl | Sertifikatlaşdırılan məhsulların ixrac həcmi (milyon $) | İxracda artım faizi (%) | Ümumi ixrac həcmi (mln $) |
|---|---|---|---|
| 2020 | 800 | 5% | 1000 |
| 2021 | 950 | 18.75% | 1150 |
| 2022 | 1120 | 17.9% | 1300 |
| 2023 | 1260 | 12.5% | 1450 |

***Mənbə:*** *AQTA (Azərbaycan Qida Təhlükəsizliyi Agentliyi), Azərbaycan Dövlət Statistika Komitəsi, 2023 (www.stat.gov.az)*

3. Qlobal standartlar və sertifikatlaşdırma

Qlobal kənd təsərrüfatı bazarlarında sertifikatlaşdırma tələb edən standartlar fərqli ölkələrdə dəyişir, lakin **"ISO 22000"** kimi beynəlxalq standartlar və **"GlobalG.A.P"** kimi yaxşı kənd təsərrüfatı təcrübələri bu sahədə ən geniş yayılmış tələblərdən hesab olunur (ISO, 2021). Bu standartlar məhsul istehsalında təhlükəsizlik, keyfiyyət və ətraf mühitin qorunması kimi vacib amilləri nəzərə alır. Sertifikatlaşdırma prosesi məhsulun istehsalından satışına qədər bütün mərhələləri əhatə edir və məhsulun izlənəbilirliliyini təmin edir. **[4]**

**ISO (İnternational Organization for Standartization)** dünyanın ən nüfüzlü standartlaşma təşkilatlarından biridir. ISO-nun təqdim etdiyi standartlar qlobal səviyyədə qəbul edilən texniki və idarəetmə sistemlərini təsdiqləyir. Müxtəlif sahələrdə tətbiq olunan ən əsas ISO sertifikatları;

- **ISO 9001 (Keyfiyyət İdarəetmə Sistemi)** – Bu, qlobal səviyyədə tətbiq olunan keyfiyyət idarəetmə standartıdır. Təşkilatlar ISO 9001 sertifikatı ilə məhsul və xidmətlərin keyfiyyətini və müştəri məmnuniyyətini təmin etməyi hədəfləyir. Bu sertifikatın əldə edilməsi təşkilatların məhsul və xidmət keyfiyyətinin daim yüksəldilməsinə kömək edir.
- **ISO 22000 (Qida Təhlükəsizliyi İdarəetmə Sistemi)** – Qida sektorunda qlobal səviyyədə təhlükəsiz qida istehsalı və təchizatını təmin etmək üçün tətbiq olunur. Bu standart qida istehsalçılarının qida təhlükəsizliyi ilə bağlı riskləri idarə etmələrinə və istehlakçılra təhlükəsiz məhsullar təqdim etmələrinə kömək edir.
- **ISO 14001 (Ətraf Mühitin İdarəetmə Sistemi)** – Bu standart ətraf mühitin qorunması və ekoloji idarəetmə sistemlərinin tənzimlənməsi üçün istifadə olunur. ISO 14001 ətraf mühitə olan mənfi təsirləri azaltmaq məqsədi ilə tətbiq edilir və təşkilatların ekoloji performansını davamlı olaraq yaxşılaşdırmalarına kömək edir. **[8]**

**GlobalG.A.P. (Good Agricultural Practices)** qlobal səviyyədə tətbiq olunan kənd təsərrüfatı təcrübələrinə dair standartdır. Bu sertifikat kənd təsərrüfatında daha təmiz, sosial baxımdan məsuliyyətli və iqtisadi cəhətdən səmərəli məhsul istehsalını təmin etmək məqsədilə yaradılıb. Bu sertifikat xüsusilə meyvə-tərəvəz, heyvandarlıq və balıqçılıq məhsulları üçün tətbiq edilir. Sertifikat məhsulun ekoloji, sosial və iqtisadi standartlara uyğun olduğunu təsdiqləyir və beynəlxalq bazarlara çıxışını asanlaşdırır. Məhsulun izlənəbilirliyi və qida təhlükəsizliyi baxımından GlobalG.A.P. beynəlxalq ticarətdə vacib rol oynayır.**[7]**

**HACCP (Təhlükə təhlili vəKritik Nəzarət Nöqtələri)** qida təhlükəsizliyinə dair idarəetmə sistemidir. Bu standart qida istehsalı zamanı potensial təhlükələri müəyyən etmək və onları nəzarət altına almaq məqsədi daşıyır. HACCP qida zənciri boyunca hər bir mərhələdə qida təhlükəsizliyin təmin edilməsi üçün tətbiq olunur. Bu sertifikat qida məhsullarının istehsalında bioloji, kimyəvi və fiziki təhlükələri minimuma endirir və istehlakçıların sağlamlığını qorumağa yönəlmiş tədbirlər nəzərdə tutur. HACCP qlobal bazarlarda məcburi tələblər sırasındadır. **[10]**

**Fairtrade (Ədalətli Ticarət)** sertifikatı, inkişaf etməkdə olan ölkələrdən ixrac olunan kənd təsərrüfatı məhsulları üçün tətbiq olunan sosial sertifikatdır. Fairtrade sertifikatı, fermerlərin və əməkçilərin daha ədalətli şərtlər altında işləmələrini və məhsullarının qiymətlərini əldə etmələrini təmin etməyə yönəlib. Bu sertifikat kənd təsərrüfatı, xüsusilə qəhvə, kakao və pambıq məhsulları üçün geniş tətbiq olunur. **[14]**

**Organik sertifikatlar** qlobal bazarda ekoloji təmiz məhsullar üçün geniş tətbiq olunur. Bu sertifikatlar kənd təsərrüfatı məhsullarının kimyəvi gübrələr və pestisidlərdən istifadə olunmadan istehsal edildiyini sübut edir.

- **EU Organic Sertifikatı** – Avropa Birliyinin orqanik məhsullara dair tələblərini və qaydalarını təsdiqləyir. EU Organic sertifikatı, məhsulun kimyəvi pestisidlər və genetik modifikasiyalardan istifadə edilmədən ekoloji üsullarla istehsal edildiyini göstərir. **[15]**
- **USDA Organic Sertifikatı** – ABŞ-da ekoloji təmiz məhsullar üçün tələb olunan bu sertifikat məhsulun ekoloji qaydalara uyğun olaraq istehsal edildiyini və heç bir sintetik maddə və ya kimyəvi gübrə istifadə edilmədiyini göstərir. **[16]**

**Rainforest Alliance Sertifikatı,** qlobal kənd təsərrüfatı və meşəçilik sahələrində davamlı və məsuliyyətli istehsalı təşviq edən bir sertifikatdır. Bu sertifikat ekoloji dayanıqlılığı və sosial məsuliyyəti dəstəkləyir. Sertifikat, tropik meşələrin qorunması, təbii ehtiyatların dayanıqlı istifadəsi və yerli icmaların rifahını artırmaq məqsədini daşıyır. **[13]**

4. Sertifikatlaşdırmanın beynəlxalq ticarətə təsiri

Beynəlxalq ticarətdə sertifikatlaşdırmanın əhəmiyyəti artdıqca, sertifikatlaşdırılmış kənd təsərrüfatı məhsullarının payı da artır. 2023-cü il üzrə FAO-nun hesabatına görə, qlobal kənd təsərrüfatı məhsullarının təxminən 60%-i sertifikatlaşdırma tələblərinə uyğun olaraq beynəlxalq bazarlara çıxarılıb (FAO, 2023). Bu, sertifikatlaşdırılmış məhsulların bazara çıxışını asanlaşdırır və rəqabət üstünlüyünü artırır. Sertifikatlaşdırma, həmçinin, məhsulun sağlamlıq və təhlükəsizlik tələblərinə uyğun olduğunu təsdiqləyir, bu da ixracatçılar üçün böyük üstünlükdür. **[6]**

**Cədvəl 2**

**Qlobal kənd təsərrüfatı məhsullarınınsertifikatlaşdırılması üzrə beynəlxalq pay (2020-2023)**

| İl | Sertifikatlaşdırılan məhsulların qlobal payı (%) | Qlobal ticarət həcmi (trilyon $) | Sertifikatlaşdırılmış məhsulların həcmi (trilyon $) |
|---|---|---|---|
| 2020 | 55% | 2.5 | 1.375 |
| 2021 | 57% | 2.7 | 1.539 |
| 2022 | 59% | 2.7 | 1.711 |
| 2023 | 60% | 3.0 | 1.800 |

***Mənbə:*** *FAO, 2023; WTO, 2022 (www.fao.org , www.wto.org)*

**Diaqram 1. Sertifikatlaşdırılan kənd təsərrüfatı məhsullarının illik artım faizi (2020-2023)**




***Mənbə:*** *www.fao.com , www wto.org (Food and Agriculture Organization of the United Nations, World Trade Organization)*

5. Azərbaycanda sertifikatlaşdırmanın idarəedilməsi

Azərbaycanda kənd təsərrüfatı məhsullarının sertifikatlaşdırılması üzrə siyasətlər getdikcə təkmilləşdirilir. AQTA və Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi kimi qurumlar kənd təsərrüfatı məhsullarının keyfiyyətini və təhlükəsizliyini təmin etmək üçün sertifikatlaşdırma tələblərini ciddi şəkildə tətbiq edirlər (Azərbaycan Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi, 2023). Bu tədbirlər, Azərbaycanı kənd təsərrüfatı məhsullarının qlobal bazarlara çıxışını asanlaşdırmışdır. 2022-ci ildə aparılan təhlillərə görə, Azərbaycan kənd təsərrüfatı məhsullarının ixracatında 12%-lik artım qeydə alınıb, bu da sertifikatlaşdırmanın birbaşa təsiri kimi qiymətləndirilir. **[1]**

Azərbaycanda sertifikatlaşdırma sahəsini tənzimləyən əsas qanunlara aiddir;

- **"Standartlaşdırma haqqında" Qanun (2019):** Bu qanun məhsul və xidmətlərin keyfiyyətinə dair vahid tələbləri müəyyən edir və ölkə daxilində standartların tətbiqini təmin edir. Bu qanuna əsasən, standartlaşmanın məqsədi, ölkədə istehsal olunan məhsulların beynəlxalq standartlara uyğunluğunu təmin etməkdir. **[11]**
- **"Texniki Tənzimləmə və Standartlaşdırma haqqında" Qanun (2021):** Bu qanun məhsulların texniki tələblərini və onların uyğunluq qiymətləndirilməsi qaydalarını müəyyən edir. Məhsul və xidmətlərin keyfiyyət və təhlükəsizlik standartlarına uyğunluğunu təmin etmək üçün bu qanun əsas rol oynayır. **[12]**

6. İqtisadi təsir və sertifikatlaşdırmanın faydaları

Sertifikatlaşdırılmış məhsulların beynəlxalq ticarətdə payının artması ölkələrin iqtisadiyyatına da müsbət təsir göstərir. FAO-nun (2023) məlumatlarına görə, sertifikatlaşdırılmış məhsulların qlobal kənd təsərrüfatı ticarətindəki payı son beş ildə illik 3%-lik artımla yüksəlmişdir. Azərbaycanda isə sertifikatlaşdırmanın tətbiqi nəticəsində kənd təsərrüfatı ixracatının ümumi həcmi 2022-ci ildə təxminən 1,2 milyard dollar səviyyəsinə çatmışdır. **[2]** Bu, ölkə iqtisadiyyatına mühüm töhfə verir və Azərbaycanın beynəlxalq ticarətdə mövqeyini gücləndirir.

7. Sertifikatlaşdırmanın çətinlikləri

Buna baxmayaraq, sertifikatlaşdırma prosesində bəzi çətinliklər də mövcuddur. Xüsusən də kiçik və orta ölçülü fermerlər üçün sertifikatlaşdırma xərcləri yüksək ola bilər. Bu da onların beynəlxalq bazara çıxışını məhdudlaşdırır. Azərbaycanın kənd təsərrüfatı sektorunda

sertifikatlaşdırma mexanizmləri üzrə yerli və beynəlxalq qurumlar arasında daha sıx əməkdaşlıq tələb olunur. [**3**]

**MÜZAKİRƏ VƏ NƏTİCƏ:**

Araşdırma nəticəsində məlum olur ki, qlobal sertifikatlaşdırma və standartlaşdırma sistemləri kənd təsərrüfatı məhsullarının beynəlxalq ticarətində mühüm rol oynayır. Sertifikatlar istehsalçıların məhsullarının keyfiyyətini, təhlükəsizliyini və izlənəbilərliyini təmin etməklə, həm yerli, həm də qlobal bazarlarda rəqabətqabiliyyətli olmalarına kömək edir. Qlobal sertifikatlar, xüsusilə ISO, GlobalG.A.P., HACCP, Fairtrade və orqanik sertifikatlar məhsul ixracatının artırılmasında mühüm əhəmiyyət daşıyır. Bu sertifikatların tətbiqi, istehlakçı tələblərinin daha yaxşı qarşılanması və qida təhlükəsizliyinin təmin olunması üçün zəruridir. Azərbaycanda isə kənd təsərrüfatı məhsullarının sertifikatlaşdırılması üzrə müəyyən addımlar atılmış, lakin prosesin qlobal tələblərə uyğunlaşdırılması üçün daha çox iş görülməsi tələb olunur.

**Nəticə olaraq aşağıdakıları qeyd etmək olar:**

**1.** Qlobal sertifikatlar beynəlxalq ticarət prosesini asanlaşdırmaq və məhsulun keyfiyyətini təmin etmək üçün vacibdir. Bu sertifikatlar istehsalçıların qlobal bazarlarda tanınmasını və ixrac imkanlarını artırır.

**2.** Azərbaycanda kənd təsərrüfatı məhsullarının sertifikatlaşdırılması ilə bağlı müəyyən qanunvericilik və prosedurlar mövcuddur, lakin bu sitemin daha da təkmilləşdirilməsi üçün beynəlxalq təcrübədən istifadə edilməlidir.

**3.** Sertifikatların tətbiqi, qida təhlükəsizliyi, ətraf mühitin qorunması və istehlakçı hüquqlarının təmin olunması baxımından vacibdir və bu, eyni zamana qlobal ticarət şəbəkəsində rəqabət üstünlüyünü əldə etmək üçün də mühümdür.

**Təkliflər:**

**1.** Milli sertifikatlaşdırma sistemi təkmilləşdirilməlidir – Azərbaycanın kənd təsərrüfatı sektoru beynəlxalq sertifikatlara uyğunluq təmin edəcək yerli sertifikatlaşdırma sistemini təkmilləşdirməlidir. Bununla yanaşı, milli qanunvericilik beynəlxalq standartlarla uzlaşdırılmalıdır.

**2.** Beynəlxalq sertifikatlar üzrə maarifləndirmə - Fermerlər və istehsalçılar qlobal sertifikatların əhəmiyyəti və tətbiq prosedurları barədə maarifləndirilməlidir. Bu istiqamətdə dövlət və özəl sektor birlikdə işləyərək təlim proqramları həyata keçirməlidir.

**3.** İxraca yönəlik dövlət dəstəyi – Azərbaycan dövlətinin ixrac potensialını artırmaq üçün sertifikatlaşdırma xərclərini qarşılamaq məqsədilə xüsusi subsidiyalar və dəstək mexanizmləri tətbiq etməsi vacibdir. Bu, xüsusilə kiçik və orta fermer təsərrüfatlarına kömək edə bilər.

**4.** Texniki dəstəyin təmin edilməsi – Sertifikatlaşdırma prosesində istehsalçılara texniki dəstək və konsultasiya xidmətlərinin göstərilməsi vacibdir. Bununla sertifikatlaşdırma prosedurları asanlaşdırıla bilər və yerli fermerlərin qlobal bazarlara inteqrasiyası sürətləndirilə bilər.

Bu təkliflərin həyata keçirilməsi Azərbaycanın kənd təsərrüfatı məhsullarının qlobal bazarlarda rəqabət qabiliyyətini artıracaq və ölkənin beynəlxalq ticarətdə payını genişləndirəcəkdir.

***İstifadə edilmiş ədəbiyyat:***


**1.** Əliyev, İ. (2022). Azərbaycanda kənd təsərrüfatı məhsullarının sertifikatlaşdırılması və ixrac potensialı. Bakı: Elm Nəşriyyatı.

**2.** Abbasov.A. (2020). Azərbaycanın aqrar sektorunda standartlaşdırma və beynəlxalq tələblər. Azərbaycan Kənd təsərrüfatı Jurnalı, 6(4), s45-53.

**3.** Quliyev. N. (2023). Azərbaycanın kənd təsərrüfatı məhsullarının beynəlxalq standartlara uyğunluq səviyyəsi. Aqrar İqtisadiyyat Jurnalı, 8(2), s30-40.

**4.** Van der Vorst, J.G.A.J., Da Silva, C.A., & Trienekens, J.H. (2007). Agro- Industrial Supply Chain Management: Concepts and Applications. Rome: FAO. (səh. 71).

**5.** www.fao.org

6. www.wto.org
7. www.globalgap.org
8. www.iso.org
9. www.afsa.gov.az (Azərbaycan Qida Təhlükəsizliyi Agentliyi)
10. www.faor.org/fao-who-codexalimentarius
11. https://e-qanun.az/framework/42881
12. https://e-qanun.az/framework/43689
13. www.rainforest-alligance.org
14. www.fairtrade.net
15. www.ec.europa.eu
16. www.usda.gov
17. www.stat.gov.az



**M.R.Mammadov**
*doctoral student, Baku State University*
*ORCID 0009-0006-8224-8182*


## The role of certification and standardization of agrarian products in foreign economic development: azərbaijan and global prospects


### Abstract

***Introduction and Purpose:*** *The agricultural sector is important for Azerbaijan as one of the important areas of economic development and foreign trade. The goal is to investigate the role of certification and standardization to ensure the access of agrarian products to international markets and expand foreign trade relations. The quality and safety of products in the international trade system is approved through certificates, which strengthens economic cooperation between the countries. Compatibility for international standards for Azerbaijan allows the agrarian sector to strengthen its position in foreign markets by increasing its competitiveness.*

***Materials and Methods:*** *Legislative documents on international certification and standardization systems applied in Azerbaijan and other countries such as research materials, the agricultural sector development strategies and international trade information were used. The method was applied to quality analysis and comparative analysis approaches. The impact of the certification process into the agricultural sector was studied, and Azerbaijan agrarian products were analyzed competitiveness in international markets. International practices were also investigated and the possible ways to Azerbaijan were discussed.*

***Results:*** *The study found that the application of a certification system in accordance with international standards to ensure the access of agricultural products to international markets in Azerbaijan. Currently, the export opportunities are limited because many agrarian products have not fully met the technical and quality standards. Production of products in accordance with the certification requirements may increase exports. All the same time, it is important to improve local legislation and technical support for the introduction of the certification system. Increasing foreign investment is one of the necessary factors to establish production facilities in accordance with international standards.*

***Discussion and Conclusion:*** *Research shows that certification and standardization of agricultural products can play a decisive role in the development of the Azerbaijani agricultural sector. It is important to meet the requirements for quality and safety to be competitive in international markets. One of the priority areas for Azerbaijan is the creation of infrastructure and legislative framework for international certificates to strengthen cooperation between producers and government agencies. As a result, the improvement of the certification system will expand the agricultural trade opportunities in the agricultural sector and encourage foreign investment to the country.*

***Keywords:*** *agrarian sector, certification, standardization, international trade, competitiveness.*